www.achiq.info

Çeşmazər Mirqasım

# Məşəqqətli Ömür

## 1

Məhəmməd hacı Qulam oğlu Biriya 1914-cu ildə Cənubi Azərbaycanın Təbriz şəhərində dülgər ailəsində anadan olmuş, gənc yaşlarından şeir yazmağa başlamışdır. 1941 - 1945-ci illərdə Cənubi Azərbaycanda nəşr olunan «Azərbaycan», «Vətən yolunda», «Ədəbiyyat səhifəsi», «Yumruq», «Xavəre No» və diygər qəzetlərdə şeirləri və kiçik pyesləri ilə çıxış etmiş və böyük şöhrət qazanmışdır. Eyni zamanda şair 1941-ci ildən Cənubi Azərbaycanda yaranan Azadlıq klubları, Azərbaycan çəmiyyəti və Fəhlə həmkarlar ittifaqında milli azadlıq uğrunda mübarizə etmişdir.

Biriya 1945-ci ilin sentyabrında Cənubi Azərbaycanda Azərbaycan Demokratik Firqəsinin yaranmasına (3.09.1945), xalq hakimiyyəti və Azərbaycanın muxtariyyəti uğrunda siyasi və silahlı mübarizəyə (IX. XII. 1945) rəhbərlik edən inqilabçılardan biri olur. O, firqənin Mərkəzi Komitəsinin üzvü olaraq inqilabi təşkilatçılıq fəaliyyəti göstərirdi. Biriya 1945-ci ilin noyabrında Azərbaycan Xalq Konqresinə və .dekabrın 1-də Azərbaycan Milli Məclisinə (Cənubi Azərbaycanın Ali qanunverici orqanına) seçilmişdir. 1945-ci il dekabrın 12-də (1324-cü il Azər ayının 21-də) Təbriz şəhərində Azərbaycan Milli Məclisi açıldı. Bu məclis həmin gün Azərbaycan Demokrat Firqəsinnn rəhbəri Seyid Cəfər Pişəvəri baş nazir (Nazirlər Şurasının sədri) olmaqla Azərbaycan milli hökumətini (10 nazirlikdən ibarət) təşkil etdi. Məhəmməd Biriya bu inqilabi xalq hökumətində Maarif naziri oldu.

## 2

1946-cı il Cənubi Azərbaycan tarixində «Milli Hökumət dövrü», «Pişəvəri hökuməti zamanı» adı ilə məşhur olmuşdur. Bu dövrdə Məhəmməd Biriya Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin Büro üzvü, Milli Məclis deputatı, Azərbaycan maarif naziri, Azərbaycan həmkarlar İttifaqının sədri, Azərbaycan şair və yazıçılar cəmiyyəti idarə heyətinin üzvü olaraq siyasi, ictimai və ədəbi fəaliyyət göstərir.

Bu ildə Azərbaycanda mədəni inqilab baş verdi. Biriya bu mədəni inqilabda yaxından iştirak edirdi. Milli hökumət yaranandan bir həftə sonra (19. XII 1945-də) maarif naziri xüsusi və hökumət məktəblərində təlim-tərbiyə işlərini Azərbaycan dilində qurmaq üçün hazırlıq aparılmasına göstəriş verdi və əməln işə başladı. Qısa müddətdə ibtidai məktəblər üçün Azərbaycan dilində dərsliklər hazırlanıb çap edildi.

Cənubi Azərbaycanda ilk dəfə «Dil haqqında Azərbaycan milli hökumətinin qərarı» çıxdı (6.1.1946). Həmin qərarda deyilirdi: «Bu gündən etibarən Azərbaycanda Azərbaycan dili rəsmi dövlət dili hesab olunur». İlk dəfə milli hökumət vaxtı incəsənət və rəssamlıq məktəbi (19.1.1946), Dövlət teatrı (28.111. 1946), Azərbaycan radiosu (7.IV.1946), Dövlət Universiteti (12. VI.1946) və diygər milli-mədəni ocaqlar açıldı və işə başladılar, Azərbaycan rəssamlar və heykəltəraşlar cəmiyyəti yarandı. 1945-1946-cı illər Cənubi Azərbaycanda çiçəklənmə dövrü olmuşdur. 1946-çı il sentyabrın 23-dən bütün məktəblərdə dərslər Azərbaycan dilində davam etdi. Məhəmməd Biriya milli hökumətin naziri kimi iqtisadi, ictimai və mədəni-maarif sahəsindəki islahatların fəal iştirakçısı idi.

Azərbaycan Demokrat firqəsi və Əyalət Əncüməni Biriyanın ictimai-inqilabi xidmətlərini yüksək qiymətləndirərək onu 10 nəfər yoldaşları ilə birlikdə Səttarxan ordeni ilə təltif etdi.

## 3

**İranın şah dövlətinin silahlı qüvvələri imperialistlərin köməyi ilə Azərbaycanda xalq hakimiyyətini dağıtdığı günlər, 1946-cı il dekabrın 10-da Azərbaycan Demokrat Firqəsi Mərkəz Komitəsinin bürosu Məhəmməd Biriyanı S. C. Pişəvərinin qiyabında Mərkəzi Komitə sədri seçdi. Bütün bu hadisələr baş verdiyi günlər, Azərbaycan demokratlarına Stalinin V. M. Molotov və M. C. Bağırov vasitəsi ilə zorla qəbul etdirdiyi siyasətə uyğun olaraq Məhəmməd Biriya Azərbaycan Demokrat Firqəsi MK-sı adından öz imzası ilə bir bəyannamə verdi (10. XII. 1946). Bu bəyannamədə deyilirdi: Şah qoşunları Azərbaycana gəlir və guya İran məclisinə seçknlərin düzgünlüyünə nəzarət etmək üçün gəlir. Seçkilər tezliklə keçirilməli və İran məclisi tezliklə təşkil tapmalıdır.**

**Bu təcili seçki və məclis kimə lazım idi? Qeyd edək ki, 1946-cı il aprelin 4-də SSRİ ilə İran dövlətləri arasında Tehran şəhərində imzalanmış sazişə əsasən İran-Sovet birgə neft kampaniyası yaranması haqqında müqavilə bağlanmışdı. Bu müqavilə 7 ay müddətinə qədər (24. X. 1946-cı ilə qədər) İranın yeni seçiləcək XV məclisinin təsvibindən keçməli idi (demək, gecikirdi). İran hökuməti XV məclis seçkilərinə nəzarət etmək bəhanəsi ilə xalq hakimiyyəti hökmran olan Cənubi Azərbaycana böyük silahlı qüvvə göndərdi. Şah qoşunlarının, Azərbaycan üzərinə təcavüzünə nə İranın daxilindən və nə də xarncdən etiraz edən oldu. Azərbaycana kömək edən də olmadı. O ağır günlərdə «qüdrətli dairələr» Azərbaycan demokratlarına məsləhət edirdilər: «Seçkilərə mane olmayın! Şahənşahın silahlı qüvvələrinə müqavimət etməyin!». Bu siyasət İran dövlətinin Azərbaycan üzərinə təcavüzünə geniş yol açdı. Eyni zamanda düşmən qarşısında Azərbaycan demokratlarının əl-qolunu tamamilə bağladı-beləliklə, Cənubi**

**Azərbaycan xalqının milli azadlığı və inqilabi hakimiyyəti Stalinin haqsız neft siyasətinə və iddialarına qurban edildi.**

1946-cı il dekabrın 11-də gecə Təbriz şəhərində Əyalət Ənçümənində keçirilmiş iclasın qərarı üzrə Azərbaycan xalq qoşunlarına və fədai qüvvələrinə qarşı meydanlarını tərk etmək və İran dövlətinnn silahlı qüvvələrinə muqavimət göstərməmək haqqında göstəriş verildi. Belə bir qərarı ancaq əyalət əncüməninin rəyasət heyətinin (10 nəfərdən ibarət idi) çıxartmaq səlahiyyəti var idi. Lakin bu iclasda iştirak etmiş Əncümənin rəyasət heyətinin 5 üzvünün, Azərbaycan və Təbriz valilərinin və 7 nəfər idarə rəislərinin belə bir qərar çıxartmaq səlahiyyəti yox idi. Bu iclasda xalq qoşunlarının və fədailərin generallarından heç kim iştirak etməmişdilər. Biriya və mən bu iclasın şahidi olmuşuq.

İran dövləti Azərbaycanın azadlığını boğduğu günlər şair Biriya «Sevirəm mən də» adlı şeirində uca səslə öz sözünü deyirdi:

Mən bu meydana qədəm qoymamuşam şöhrət üçün,
Mal üçün, izzət üçün, şövkət üçün, sərvət üçün.
Yaradıb haqq məni öz millətimə xidmət üçün,
Hazıram canı fəda etməyə bu niyyət üçün.

1946-cı il dekabrın 11-dən İran dövlətinin silahlı qüvvələri maneəsiz olaraq Azərbaycan torpaqlarında böyük cinayət və qırğınlar törədərək irəlilədilər. Dekabrın 20-dən sonra isə Azərbaycanda xalq hakimiyyəti ləğv edildi və şahlıq quruluşu bərpa olundu. Azərbaycan xalqı yenə də siyasi-ictimai və milli-mədəni hüquqlardan məhrum edildi. Azərbaycanın 25 min nəfər qoca və cavanı milli azadlıq tələb etdiklərinə görə qılıncdan keçirildilər. On minlərlə ailə İranın cənubuna sürgün edildi. Sonrakı bir neçə ay ərzində Azərbaycan şəhərlərinin ictimai meydanları çərgələrlə düzülən dar ağaclarından asılmış üsyançı meyitləri ilə dolu idi. Belə bir şəraitdə şair Məhəmməd Biriya da bir sıra yoldaşları kimi Təbrizdə gizli yaşamağa məcbur oldu.

## 4

Məhəmməd Biriya 1947-ci ilin martında SSRİ-yə, Bakı şəhərinə gətirildi. Ölümün çəngindən xilas edildi. Lakin çox keçmədən Bakıda cəlladın qılıncı onun başının üstünü aldı. Bunlar barədə bir az sonra.

Hələlik qeyd edək ki, 1947-ci ilin mart ayı idi. Faşist Almaniyası üzərində tarixi qələbənin ikinçi ili yaxınlaşırdı. Stalinin qəddar diktaturası, cəza tədbirləri və Sovet Azərbaycanında M. C. Bağırovun özbaşınalığı və cinayətləri davam edirdi. Belə bir zamanda, Cənubi Azərbaycanın antifaşist və inqilabçı şairi, milli azadlıq inqilabi hərəkatının rəhbərlərindən biri, xalq hökumətinin maarif naziri Məhəmməd Bnriya Bakıda böyük

hörmətlə qarşılandı, onun iftixarına xüsusi qonaqlıq verildi. İki-üç dəfə şəxsən M. Ç. Bağırovun görüşündə və onun tərəfindən verilmiş qonaqlıqda iştirak etdi. Sonra Biriya demokratların başçılarından Bakıya mühaçirət etməyə məcbur olmuş S. C. Pişəvəri, S. Badəqan, Q. İlhami, Z. Qiyami, C. Kavyan,. T. Şahin, M. Pənahyan, Ə. Şəmidə, R, Qazi və başqaları ilə, eləcə də cənublu şair dostları Azəroğlu, Əli Tudə, Bülluri, Gülgün, Çavuşi və digərləri ilə görüşür.

Biriya beşinci dəfə idi ki, Bakıya gəlirdi. Ona görə də ilk həftələr köhnə tanış-bilişlərini axtarır, tapır, görüşürdü. Onun otağında, yazı mizinin üstündə, qadınının və bir neçə aylıq oğlunun şəkli qoyulmuşdu. O, tez-tez həsrətlə bu şəklə baxırdı. Ondan təzə şeir yazıb-yazmadığını soruşmaq olmurdu. Yazaram! Yazaram!- deyirdi. Bakıda, Azərnəşr, 1944-cü ildə Biriyanın «Ürək sözü» adlı 117 səhifəlik (5 min nüsxə tirajla) bir kitabını buraxmışdı. Bu kitab az tirajla və 44 il əvvəl çıxdığına görə (həm də 1948-ci ildən qadağan olunduğundan) indi hətta 60-70 yaşlı oxucular içərisində belə Biriyanın o kitabında toplanmış şeirləri ilə tanış olan az tapılar.

1947-ci il dekabrın 2-də «Azərbaycan» qəzetinin yeni dövriyyəsi nəşr olunmağa başladı. Onun birinci nömrəsində Biriyanın Bipərva imzası ilə «Aras» adlı şeiri dərc edilmişdi.

1947-ci ildir. Həftələr, aylar keçir. İl sona çatır. Hər kəsin başı öz işi və qayğıları ilə qarışır. Bu arada bir də görürük, Məhəmməd Biriya evində yox, işdə yox və camaat içərisində də gözə dəymir. Şair yoxa çıxıb! Hərə hadisəni bir cür yozurdu. Söz-sehbət çoxalırdı. Demə o günlər həbsxanada DİN-nin heyvərələri Biriyanı kötəkləyib dişlərini sındırmışlar. Biz bu hadisədən 9 il sonra xəbər tutduq. Gözümüz bərk qorxmuşdu. Stalinin Cənubi Azərbaycan demokratlarına səbirli, ciddi və möhkəm olmaq haqqında teleqramından az sonra Pişəvəri, «maşın qəzasında həlak olmuşdu». Cənubi Azərbaycana, evlərinə getmək istəyən yüzlərlə mühacir sürgün edilmişdi.

1953-cü ilin martında Stalin öldü. Ağır boğucu vəziyyətin dəyişəcəyi ümidi parladı, lakin tutqun və tünd. Stalinin 1930-1953-cü illərdə həyata keçirdiyi qanunsuzluq, istibdad, zorakılıq və kütləvi cəza tədbirləri sistemi kökündən laxladı. 1956-cı ilin fevralında Sov.İKP-nin XX qurultayı şəxsiyyətə pərəstişi və onun nəticələrini kəskin surətdə pislədi 1956-cı ilin aprelində böyük diktatorun Azərbaycandakı əlaltıları M. C. Bağırov, X. Qriqoryan, A. Markaryan, S. Yemelyanov və diygərləri mühakimə olundular və törətdikləri cinayətlərə görə şiddətli cəzaya məhkum edildilər. Kütləvi cəza tədbirləri dövründə günahı olmadan cəzalandırılmış minlərlə şəxs partiyanın XX qurultayından sonra tam bəraət aldı. Belə bir şəraitdə, 1956-cı ilin yayında mən Moskvaya getdim və Sov.İKP Mərkəzi Komitəsində rəhbər yoldaşlarla görüşdüm.

Bu görüşdə mən Sov.İKP Mərkəzi Komitəsindən xahiş etdim ki, 1947-ci ildə və sonra Sovet Azərbaycanından sürgün olunmuş cənubluların, eləcə də Milli hökumətin maarif naziri Məhəmməd Biriyanın, kənd təsərrüfat naziri Cavid Məhtaşın, Milli Məclis deputatı, inqilabçı jurnalist İsmayıl Şəmsin və diygərlərinin həbsdən azad olunmalarına yaxından kömək etsinlər. Sov.İKP Mərkəzi Komitəsindən olan yoldaşlar xahişimizə qayğı ilə yanaşdılar.

C. Məhtaş və İ. Şəms də həbsdən azad olub Bakıya gəldilər. Az sonra, 1956-cı ilin payızında 9 il həbsdən sonra (29. IX. 1956) Məhəmməd Biriya tam bəraət kağızı aldı. Onun ən yaxın dostu Mir Rəhim Vilayi, Mardova gedib Biriyanı birbaşa həbsdən Moskvaya və neçə gün sonra isə (1. XI. 1956) Bakıya gətirdi. Biriya Bakıda böyük hörmətlə və qayğı ilə qarşılandı.

Biriya danışırdı ki, 1947-ci ilin axırlarında həbs edilərkən Azərbaycan SSR Daxili İşlər Nazirliyinin müstəntiqi məni üç məsələdə günahkar hesab edirdi:

1942-ci ilin axırlarında Bakıda Azərbaycan SSR DİN-in icazəsi olmadan Təbrizə qayıtmaq üçün özbaşına viza almağa çalışıbsan.

Cənubi Azərbaycanda Milli hökumətin naziri olan zaman, !946-cı il yanvarın 8-də Amerikanın Təbriz şəhərindəki konsulu səninlə görüşə gəlmişdi. Niyə görüşə razılıq verdin? Bu görüşdə hansı məsələləri müzakirə etdiniz?

1947-ci ilin axırlarında yenə Bakıda Azərbaycan SSR DİN-in icazəsi olmadan Təbrizə qayıtmaq üçün özbaşına viza almağa çalışıbsan.

Biriya bu ittihamlara cavab vermişdi ki, 1942-ci eləcə də 1947-ci ildə, hər iki dəfə də Bakıya müvəqqəti gəlmişdim. Xarici vətəndaş olduğumdan Təbrizə qayıtmağa viza almaq uçün heç kəsdən icazə almalı deyildim. Təbrizdəki Amerika konsulu ilə görüşmək üçün tabe olduğum Milli hökumətin Baş naziri S. C. Pişəvəridən icazə almışdım. Bilmirəm, daha kimdən icazə almalı idim? Amerika konsulu ilə müzakirə edilən məsələlər barədə Milli hökumətin iclasında hesabat verdim. Bilmirəm, daha kimə hesabat verməliydim?

## 5

Şair Biriya təqribən 9 il Mordovda həbsdən sonra 1956-cı ilin payızında (1. XI. 1956) Bakıda yaşadığı günlər namaz qılmaq üçün tez-tez Bakının «Təzə pir» məscidinə gedirdi, şair dostları ilə görüşürdü. O, hər məclisdə həbs olduğu müddətdə şahidi olduğu hadisələrdən: xəstəlikdən, insan mənliyinin tapdalanmasından, ölümdən və min bir ədalətsizlikdən danışırdı. Köhnə (ərəb) Azərbaycan əlifbasının dəyişdirilməsi Sovet Azərbaycanı

xalqının tarixi-mədəni irslərindən əlaqəsini kəsdiyi uçün Biriyanı çox narahat etmişdi. Biriya yenə də Təbrizə qayıtmaq üçun viza almağa çox təlaş edirdi. O hətta bir-iki dəfə icazəsiz olaraq Moskvaya da getdi.

Qeyd etmək lazımdır ki, ədalətli və Sovet qanunçuluğunun bərpa edilməsi təzə başlanmışdı. «Dahi Stalinin» 1930-1953-cü illərdə həyata keçirdiyi cəza tədbirləri sistemi hələ hardasa öz qüvvəsini saxlayırdı. Ona görə də tam bəraət kağızı aldığı halda Biriya yenə təqib olunurdu. Ondan tez-tez kim olduğunu soruşurlar və pasport tələb edilirdi. Üst-başı axtarılırdı. Yanında ərəb əlifbası ilə yazılmış hər nə tapırdılarsa, əlindən alırdılar. Nəhayət, ədalət və Sovet qanunçuluğu yenidən gobud surətdə pozuldu. 1957-ci ilin iyununda Biriya yenidən mühakimə olundu.

## 6

Məşhur İspaniya rəssamı Fransisko Qoyya çəkdiyi rəsmlərin birinin aşağısında belə yazmışdır: «İdrak yuxuya gedəndə dəhşət törənir». Şair Məhəmməd Biriya 1947-1956-cı illərdə həbsxanalarda çəkdiyi dəhşətləri söylədiyi üçün ömrünün 10 ilini də müxtəlif yerlərin həbsxanalarında çürütməyə məcbur oldu. 10 il!

Biriya 1967-ci ildə 10 illik günahsız həbs müddəti, qurtardıqdan sonra Bakıya gəlir. Lakin az sonra Moskvaya gedir. Təbrizə qayıtmağa viza almaq istəyir. Milis mane olur. Guya şair milis nəfərini təhqir edir. Hazır şahidlər bu hadisəni yazılı surətdə təsdiq edirlər. Biriya üçüncü dəfə məhkum edilir. 10 il, üstəlik 2 il, oldu 12 il.

## 7

Biriya 1969-cu ilin avqustunda həbsdən azad olduqdan sonra yenə Bakıya gəldi. SSRİ Daxili İşlər Nazirliyi ona yaşamaq üçün Tambov vilayətinin Yaroslav kəndini təyin etmişdi. O, Bakıda Azərbaycan KP Mərkəzi Komitəsinə və Azərbaycan SSR DİN-ə 13 sentyabr 1969-cu il tarixli ərizəsində yazırdı: «Orası (Tambov) Rusiyadır, mən İranlı, orada yaşamaq mənim üçün heç cür münasib deyil». Biriya xahiş edirdi ki, Təbrizə qayıtmağa viza verilənə qədər Bakıda yaşamağa icazə versinlər. Uzun müddət həbsdə olmuş şairə heç bir kömək etmədilər. Biriyaya mənzil verilmədi, təqaüd verilmədi. O ancaq xeyirxah həmvətənlərinin və dostlarının ümidinə qaldı.

## 8

Gündəlikdən qeydlər:

10. IX. 1969. Axşam evdəydim, telefonum səsləndi. Vilayi idi. Salamlaşdıq. Sonra dedi ki, Məhəmməd sənlə danışmaq istəyir. Mən hansı Məhəmməd olduğunu soruşmadım. Telefondan Məhəmməd Biriyanın səsi gəldi.

O, ucadan deyirdi: Çeşmazər, salam! Ağa, bu necə doktor olmaqdır? Heç mən xəstəni yada salmırsan! Müalicəmlə maraqlanmırsan. Mən cavabında dedim: Biriya, çox-çox xoş gəlmisən. Sizi görmək arzusundayam. Sabah gəlib səni görəcəm.

4. XI. 1970. Bakının mərkəzi univermağında Biriya ilə görüşdüm. Bakıya dünən qayıdıb. Deyirdi ki, Tambovda lap ölümümü gözləyirdim. Orada Piçayev rayonunda mehmanxanada bu şeiri demişəm, öləndə başdaşıma yazılsın:

Vurma əl turbətimə
Türbəte adəm də. mənəm.
Nə o dünya, nə bu dünya,
İki aləm də, mənəm.

Neyləyim, pey aparan
Olmadı bu varlığıma.
Eyşu işrət də mənəm,
Möhnəti matəm də mənəm.

Arama qəbrimi,
Axtarma mənim başdaşımı.
Rəsmdə həzrəti nuh,
İsmdə xatəm də mənəm.

Bu şeir Biriyanın sufiliyi haqqında ən sonuncu yazıdır.

12.111. 1970. Bakı şəhəri pasport idarəsindən mənə telefonla xəbər verdilər ki, Biriyaya qeyri-rəsmi olaraq Bakıda-Azərbaycanda yaşamaq icazəsi verilib Ona xəbər verin, buraya gəlsin. Mən bu xəbəri Vilayiyə də çatdırdım.

13 III. 1970. Biriyanı axşam rəssam Əli Minayinin evində gördüm. Tağı Şahin də ordaydı. Biriyaya dedim ki; gedin pasport idarəsinə, sizi axtarırlar. Adres və telefon nömrəsi də verdim. Xəbər verdim ki, ona qeyri-rəsmi olaraq Bakıda-Azərbaycanda yaşamaqa icazə verilib. O çox şad oldu.

14 III. 1970. Gündüz Əli Minayi telefon etdi ki, Məhəmməd Biriyanı «Semaşko» xəstəxanasında cərrah Mahmud Bəhrami diz qapağından əməl etdi. Orada yatacaq. Vilayiyə də telefonla xəbər verdim.

15 III.1970. Vilayi ilə birlikdə gedib xəstəxanada Biriyaya baş çəkdim. Beş-altı günə oradan çıxacaq.

18. IV. 1971. Uzun fasilədən sonra «Semaşko»nun yanında Biriyanı gördüm ağ saqqalda və kasıbyana geyimdə: görüşdük. Danışdıq. O, 1944-1945-ci il Təbriz əhvalatından hacı Əzimxanı yadıma saldı-Səttarxanın qardaşını, hacı Əzimxanı nümayişə-mitinqə faytonla gətirərdik. Yığıncaq qurtaranda bu kişi piyada qalardı. Ona görə deyərdi: görükən ərzimiz-danışdığımız xoşlarına gəlmədi. Biriya demək istəyirdi ki, görükən onun da dedikləri böyüklərin xoşuna gəlməyib. Ona görə də sərgərdan qalıb. Çox xahiş etdim, dəvət etdim bizə gedək, gəlmədi, məni gözləyirlər dedi...

9. VI. 1972. Biriyanı mərkəzi bazarın yanında gördüm. Dedi: qəbrüstdən gəlirəm, Xədicəgilin evində qalıram. Yenə dəvət etdim. Gəlmədi.

Biz daha gec-gec görüşürük. Bəzən Biriyanın xəbəri Abbas Zahidigildən, bəzən Murtuza Pirgildan gəlirdi.

## 9

Biriya bir müddət gedib Şuşada Yaşadı. Sonra gəldi Bakıda qaldı. Sonra da Şamaxıda yaşadı. 1980-ci ildə Bakıya gəldi və Təbrizə getməyə hazırlaşdı

İnqilabçı şair Məhəmməd Biriyanın adı həbs olduğu tarixdən (1947-ci ilin sonundan) haqsız olaraq Azərbaycan ədəbiyyatından və inqilabi hərəkat tarixindən ləğv edildi. (Birinci növbədə 1944-cü ildə Bakıda nəşr edilmiş «Ürək sözü» kitabı 1948-ci ildən qadağan oldu). Azərbaycan Yazıçılar İttifaqının tədbirlərində, Cənubi Azərbaycan ədəbiyyatına aid müzakirə və məqalələrdə Biriyanın adı çəkilmədi. Azərbaycan Sovet Ensiklopediyasında Biriya sözü yazılmadı. Azərbaycan SSR Elmlər Akademiyasının 1988-ci ildə nəşr etdiyi Cənubi Azərbaycan ədəbiyyatı antologiyasının üçüncü cildində Biriya ilə bir dövrdə yaşamış və yaratmış 28 nəfər şair və yazıçının əsəri toplanmışdır. Lakin Biriyadan bir kəlmə də yazılmamışdır. Biriya hələ antologiyanın üçüncü cildi yığılmağa veriləndən (8. 1. 1987-ci-dən) üç il qabaq, Təbrizdə «İnqilab keşikçiləri» adlı qaragüruhçular tərəfindən öldürülmüşdü.

Mətbuatda, hətta elmi işlərdə Biriyanın adını yazmaq olmazdı. 1960-cı ildə nəşr olmuş «Cənubi Azərbaycan yazıçılarının ədəbi məcmuəsində» 21 nəfər cənublu şair və yazıçının əsəri çap edilmişdir. Lakin Məhəmməd Biriyanın adı belə çəkilməmişdir.

«Ədəbiyyat və incəsənət» qəzeti özünün 17. IV. 1981 ci il tarixli nömrəsində Əliağa Vahidin və 26.111. 1982-ci il tarixli nömrəsində Səməd Vurğunun vaxtilə (1945-1946-cı illərdə) yazıb Cənubi Azərbaycan yazıçılarına, Təbrizə göndərdikləri şeirləri dərc etmişdir. Bu, hər iki şeirdə Çavuşi, Azəroğlu. Biriya. Niknam, Etimad, Şeyda və Fitrət adları çəkilmiş dir. Lakin şeirdə Biriyanın adı kiçik hərflə getmişdir.

## 10

33 il yarım, minbir faciədən və təlaşdan sonra 1980-ci il sentyabrın 29-da Bakıdan 66 yaşlı. çox sadə geyimli, kasıb, ağsaqqal bir qoça kişi Təbrizə yola düşdü. O, həm də tamamilə əliboş gedirdi. Bu, bizim mübariz şair Məhəmməd Biriya idi. Sabahı gün qatar Culfadan Təbrizə tərəf hərəkət etdi. Yolboyu GərGər, Mərənd, Yam və Sofiyan stansiyalarında çoxlu camaat Biriyanı qarşılayır və salamlayırdı. Təbrizdə görkəmli şair Yəhya Şeyda başda olmaqla minlərlə adam Biriyanı böyük şadlıqla istiqbal etdi. Biriya Təbrizə çatdı, xalqını gördü. İlyarım idi ki, İranda şahlıq əleyhinə xalq inqilabı qalib gəlmişdi. Lakin Biriyanın gəlişi zamanı dövran dəyişikliyə uğrayırdı. İfratçı sağ ünsürlər inqilabda fəal iştirak etmiş vətənpərəst qüvvələrə divan tuturdu. Milli muxtariyyət istəyən xalqların haqlı tələbləri bütün vasitələrlə rədd edilirdi. İran qanlı və viranedici müharibəyə cəlb edilmişdi. Şair Biriya bu ədalətsizliklə və zorakılıqla razılaşa bilmədi. Məhəmməd Biriya Təbrizə qayıdandan beş il sonra 1985-ci ilin sentyabrında mürtəce qüvvələrin və cəza dəstələrinin təqibinə məruz qalır, hökumət əleyhinə fəaliyyətdə ittiham olunur. Şair bu ittihamı rədd edir. O, ifratçı sağ qüvvələrə işləmək təklifini də qəbul etmir. Buna görə də şair Məhəmməd Biriyanı döyərək kötək altında öldürürlər. Bu acı xəbər Bakıya da çatdı. Amma nə olsun ki, heç yerdə bir kəlmə də olsun deyilmədi.

Az sonra Biriyanın bu qəhrəmanlıqla ölümü Qərbi Almaniyanın Bonn şəhərində Azərbaycan dilində nəşr olunan «Ana dili» qəzetində ətraflı şərh edildi. Bu qəzetin 7. X.1986 tarixli 16-cı nömrəsində iri qara hərflərlə «Məhəmməd Biriyanı öldürdülər» adlı baş məqalə yazılmışdı.

Biriyanın öldürülmək xəbəri 1985-ci ilin oktyabrında Azərbaycan Yazıçılar İttifaqına da çatdı, Cənub yazıçılarına da. Bu faciədən Azərbaycan ədəbiyyat institutunun Cənubi Azərbaycan şöbəsi də xəbər tutdu, Şərqşünaslıq institutunun Cənubi Azərbaycan şöbəsi də. Lakin indiyə qədər Məhəmməd Biriyanın öldürülməsi haqqında Azərbaycan mətbuatında bir xəbər, ya məlumat yazılmamış və heç bir yerdə xatirə məclisi keçirilməmişdir.

Biriyanın 1957-ci ildə 10 il və 1967-ci ildə 2 il həbsə məhkum edilməsi, hər iki məhkəmə və hər iki hökm də ədalətsiz və qeyri-qanuni olmuşdur. Bu işlər durğunluq dövrundə sosialist qanunçuluğunun pozulması sırasında durur.

Biz indi ağlımızı da, ürəyimizi də, insanlara münasibətimizi də bəşəri əsasda yenidən qurmağa başlamışıq. Çalışaq idrak yuxlamasın və bir də dəhşətlər törəməsin.